AZƏRBAYCAN ORDUSU

*İmadəddin Nəsimi - 650*

# “İki cahana sığmayan ömür” adlı ədəbi-bədii gecə keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə böyük mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş "İki cahana sığmayan ömür" adlı ədəbi-bədii gecə keçirildi.*



Ədəbi-bədii gecədə hərbi məktəbin zabit, kursant, müəllim heyəti, o cümlədən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin bir qrup əməkdaşı iştirak etdilər.

Gecənin rəsmi hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlarla böyük şair İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin keçirilməsindən və 2019-cu ilin “Nəsimi İli” elan olunmasından danışdı. Zabit ölkə səviyyəsində müxtəlif yönümlü tədbirlərin keçirilməsini, eyni zamanda, orduda da İmadəddin Nəsimi irsinə və onun yaradıcılığına ehtiram əlaməti olaraq dahi şairin yubileyinin geniş qeyd edilməsini xüsusi vurğuladı. "Hərbi qulluqçulara milli-mənəvi dəyərlərimizin aşılanması, onların hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi bizim əsas məqsədimizdi. Hər bir gənc xalqımızın zəngin milli-mənəvi dəyərlərini öyrənməli, dünya klassik ədəbiyyatına daxil olan dahi şair və yazıçılarımızı tanımalıdır. Anadan olmasının 650 illik yubileyini qeyd etdiyimiz ölməz şairimiz İmadəddin Nəsimi ədəbi xəzinəmizin qızıl fonduna daxil edilib. Onun adı daim qorunur, daim yaşayır."

Mərkəz rəisi klassik Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin geniş qeyd olunmasını ölkənin mədəni həyatında əlamətdar hadisə olduğunu dedi və çıxışını Prezident İlham Əliyevin bir sitatı ilə bitirdi: "Azərbaycan xalqının ən qiymətli sərvəti onun milli-mənəvi dəyərləridir. Klassik ədəbiyyatımız isə bu dəyərlərin ən qiymətli incisidir. Hər bir azərbaycanlı bu dəyərlərə sahib çıxmalı, onu qorumalı və gələcək nəsillərə ötürməlidir. Çünki ədəbiyyat və mədəniyyət fədakarlıqdan doğan bir anlayışdır."

Sonra mərkəzin mədəni-bədii işlər üzrə təlimatçısı Gülxar Məmmədova çıxışında Azərbaycanın klassik şairi İmadəddin Nəsiminin bədii yaradıcılığındakı fəlsəfi dühasından, ədəbi dilinin zənginliyindən, yaşadığı dövrün Nəsimi həyatına və yaradıcılığına təsiri və rolundan, Vətəndə onun adının əbədiləşdirilməsindən geniş bəhs etdi. "Nəsimi yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edir. Yeddi əsrə yaxın tarixi bir dövr keçməsinə baxmayaraq, şairin yazdığı şeirlərin, qəzəllərin poeziyamıza aydınlıq gətirdiyinin, ana dilimizi və bədii sözü yeni-yeni zirvələrə yüksəltdiyinin bir daha şahidi oluruq. Ötən əsrin 70-ci illərinin əvvəllərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə İmadəddin Nəsiminin anadan olmasının 600 illik yubileyi keçirilib. Azərbaycan kino sənətində parlaq obrazı yaradılıb. Ölkəmizin paytaxtında şairin heykəli ucaldılıb. Tanınmış bəstəkarımız Firəngiz Əlizadənin "Nəsimi" passionu böyük şairimizin sönməz həyat eşqinin, haqq-ədalət uğrunda mübarizəsinin dünyaya tanıdılmasında mühüm rol oynayıb."



Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin səhnə mədəniyyəti kafedrasının baş müəllimi Əlizaman Mirzəyevin rəhbərliyi ilə hazırlanan İmadəddin Nəsiminin qəzəllərindən ibarət tələbələrin şeir çələngi ədəbi-bədii gecədə alqışlarla qarşılandı.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının İmadəddin Nəsimi yaradıcılığından və "Nəsimi" kino filmindən təqdimatları tədbir iştirakçılarında xoş ovqat yaratdı.

Sonda polkovnik Emin Səfərov çıxış edərək dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyinin məktəbdə qeyd olunmasını böyük məmnunluq hissi ilə qarşıladıqlarını dedi və ədəbi-bədii gecənin təşkilatçılarına məktəbin rəhbərliyi adından dərin minnətdarlığını çatdırdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**